*Çoxlu yaxşılıqlarına görə*
*Molli Myersə ithaf edirəm...*

# Mündəricat

FƏSİL 1. Yazarların səhər yeməyi ........................................... 9
FƏSİL 2. Fillər barədə ilk xatırlama ....................................... 22

## Birinci kitab

*Fillər*

FƏSİL 3. Dahi Alisa xalanın bilikərinin
məlumat kitabı ............................................................................ 33
FƏSİL 4. Seliya ............................................................................ 41
FƏSİL 5. Köhnə günahların uzun kölgələri olur ..................... 48
FƏSİL 6. Keçmiş rəfiqələrin xatirələri .................................... 53
FƏSİL 7. Geriyə, uşaqlığa......................................................... 60
FƏSİL 8. Missis Oliver tədqiqatı davam etdirir ...................... 67
FƏSİL 9. Fil ovunun nəticəsi .................................................. 76
FƏSİL 10. Desmond ................................................................. 86

## İkinci kitab

*Uzun kölgələr*

FƏSİL 11. Baş müfəttiş Harrouey və Puaro ............................ 97
FƏSİL 12. Seliya Erkül Puaro ilə görüşür ............................. 102
FƏSİL 13. Missis Berton-Koks ............................................. 108

FƏSİL 14. Həkim Uilloqbi .................................................. 117
FƏSİL 15. Yucin və Rozental
Saç düzümləri və kosmetika .................................................. 122
FƏSİL 16. Mister Qobinin məruzəsi..................................... 127
FƏSİL 17. Puaro gedişi barədə xəbər verir .......................... 133
FƏSİL 18. İnterlüdiya.......................................................... 137
FƏSİL 19. Meddi və Zili ...................................................... 139
FƏSİL 20. Tədqiqat ............................................................. 148

# FƏSİL 1

## *Yazarların səhər yeməyi*

Missis Oliver güzgüdə özünə baxırdı. Bir ara buxarının üstündəki iyirmi dəqiqə geri qalan saata baxıb, baxışlarını yenidən güzgüyə sarı çevirdi. O, daima saç düzümünü dəyişirdi (bu onun hobbisi idi): gah saçlarını madam Pompadur üslubunda yığır, gah burub çiyinlərinə tökür, gah geriyə darayaraq geniş alnını nümayiş etdirir, gah da klassik nizamsızlıq üslubunda saçlarını qarışdırırdı və s. Missis Oliverin bugünkü saç düzümü yaxşı alınmışdı və ona yaraşırdı, baxmayaraq ki, bunun bir əhəmiyyəti yox idi, çünki o, çox nadir halda etdiyi bir işə qalxışacaq: yəni şlyapa qoyacaqdı.

Qarderobunun yuxarı rəfində onun dörd şlyapası dururdu. Onlardan birini dəvət edildiyi toya qoyardı. Axı toya başı açıq getmək nəzakətsizlik sayılırdı.

Daha dəqiq desək, onun "toyluq" iki şlyapası vardı. Biri lələkli (dəyirmi qutuda olan) – o, başına kip otururdu, müqəddəs məbədin qarşısında maşından düşəndə güclü külək əsərsə, şlyapanı başından çıxarıb aparmasına heç narahat olmağa dəyməzdi. O biri daha dəbdəbəli idi, güllərlə,

şifon və tor duvaqla bəzədilmişdi, bu daha çox isti yay günləri üçün nəzərdə tutulmuşdu.

Qalan o biri şlyapaları istifadə edəcəyi konkret yerlər yox idi. Onlardan birini missis Oliver "kənd üçün" nəzərdə tutmuşdu, o, açıq rəngli zərif keçədən idi, nazik dairəsi vardı. Həmin şlyapanı həm də arxadan önə doğru taxmaq olardı, ümumiyyətlə, necə rahat idisə, o cür də istifadə etmək olardı. Bundan əlavə, o, tviddən tikilmiş istənilən paltarla, sviterlərlə də yaraşırdı. Missis Oliver tez-tez sviter geyinərdi, şlyapanısa, demək olar ki, heç vaxt qoymazdı. Ümumiyyətlə, bir halda ki kəndə dostlarınla aşxanada yemək yeməyə gedirsən, o zaman şlyapa qoymaq nəyə gərəkdir?

Dördüncü şlyapa isə ən bahalısı idi və ona görə də missis, Oliverin fikrincə, o ən yaxşısı idi. Bu, müxtəlif əlvan çalarlardan ibarət olan hörmə velvet çalma idi.

Missis Oliver qarderobdan şlyapanı çıxarıb bir anlıq düşündü.

– Mariya! – o qışqırdı. – Bir dəqiqəlik bura gəl!

Mariya içəri girib soruşdu:

– Siz bu gün o gözəl şlyapanızı qoymaq istəyirsiniz?

– Bəli, – missis Oliver bildirdi, – və sizinlə məsləhətləşmək istəyirdim, onu hansı yana çevirsəm yaxşıdır?

O, şlyapanı başına qoydu, Mariya isə missis Oliverin ətrafında dövrə vurdu.

– Siz onun arxasını önə qoymusunuz, – Mariya bildirdi.

– Bəli! Bilərək! Fikirləşdim ki, belə daha yaxşıdır.

– Niyə tərs qoymağın daha yaxşı olduğunu fikirləşirsiniz?

– Ona görə ki, belə öndə mavi ton olacaq. Başqa cür qoysam, önə yaşılımtıl-qırmızı ton düşəcək. – Missis Oliver şlyapanı hər iki tərəfə qoymaqla nümayiş etdirdi.

Mariya narazılıqla başını buladı:

– Mənə elə gəlir, onu tərsinə qoymaq olmaz. Bu geniş tərəf sizə yaraşmır.

– Nə etməli, yaraşmırsa yaraşmır. Qaydası necədir, elə də qoyaram, – Missis Oliver razılaşaraq şlyapanı çıxartdı.

– Zənnimcə, belə daha yaxşı olacaq, – deyib, Mariya missis Oliverə əla tikilmiş qırmızımtıl-qəhvəyi yun paltarı geyinməyinə kömək etdi və şlyapanı səliqə ilə, qaydasınca missis Oliverin gözəl saç düzümlü başına qoydu. – Həmişə olduğu kimi siz çox qəşəngsiniz, – dedi.

Görünüşünün və geyiminin təriflənməsini missis Oliver çox xoşlayardı və Mariyanın hər zaman onunla razılaşmasını qiymətləndirərdi.

– Yazarların səhər yeməyində siz nitq söyləyəcəksiniz? – Mariya xəbər aldı.

– Nitq? – missis Oliver dəhşətlə təkrarladı. – Qətiyyən! Bilirsiniz ki, nitq söyləməkdən zəhləm gedir!

– Düşünürəm ki, yazarların yeməyində hamı nitq söyləyir. Axı orada çoxlu məşhur yazıçılar olacaq!

– Bax ona görə də qoy kim xoşlayır, o çıxış eləsin. Beləlləri çoxdur. Ən əsası da onlar bunu məndən min qat yaxşı bacarırlar.

– Əminəm ki, siz lap ağıllı çıxış edə bilərsiniz!

– Xeyr, istəmirəm! Mən nəyi bacarıb-bacarmadığımı yaxşı bilirəm. Çıxış etmək mənlik deyil. Dilim topuq vurar, haradasa çaşıb qalaram, cəfəngiyyat danışaram və nəticədə səfeh görünəcəyəm. Yazmağı bacarıram, amma danışmağı yox!

– Ümid edirəm, bu səhər yeməyindən ləzzət alarsınız.

– O, möhtəşəm olmalıdır! – missis Oliver məyusluqla razılaşdı və düşündü ki, bütün bunlar doğrudur, amma niyə ora getdiyi məlum deyil.

Mətbəxdən yanan mürəbbənin iyi gəldi və Mariya cəld ora cumdu. "Düşünürəm ki, – missis Oliver öz-özünə dedi, – mən ora yazarların səhər yeməyinin nə olduğunu bilmək üçün gedirəm. Dəfələrlə bu cür mərasimlərə dəvət ediblər, amma bir dəfə də olsun ora getməmişəm".

Yazarların yeməyinə niyə getdiyini öz-özünə izah edərək missis Oliver evdən çıxdı.

Missis Oliver gecikmişdi. Ora gələndə səhər yeməyi artıq bitmişdi və çox dadlı desert verilirdi. Amma müəyyən yaşdan sonra yeməyə qarşı ehtiyatlı olmağa məcbursan. Bütün iş dişlərdədir; dümağ, qüsursuz, lap əslinə oxşayır və onlar heç vaxt ağrımır; amma yenə də onlar əsl dişlər deyillər, özü də desertə badam və ya bərk içlikli şokolad qatılırsa, bu, həyatı çox mürəkkəbləşdirir. Missis Oliver belə hesab edirdi. Bundan əlavə, karameldən, bezedən və salatlardan çəkinmək lazımdır. Əgər süni dişləri fil sümüyündən düzəltsəydilər, o zaman, yəqin ki, rahatca qovurulmuş badamı xırçıldatmaq olardı.

Qadın yazıçıların şərəfinə təşkil olunmuş səhər ziyafəti missis Oliverin xoşuna gəldi. Xoşbəxtlikdən, burada, sadəcə, zəif cinsin nümayəndələri iştirak etmirdi. Missis Oliver iki yaraşıqlı cənabın arasında əyləşmişdi. Onlardan biri – şeiriyyatını çox bəyəndiyi Edvin Obin xaricə səyahəti barədə çox ağıllı söhbət edirdi. O, böyük qurman imiş və bu mövzu missis Oliver üçün yad deyildi.

Qəhrəmanımızın digər tərəfində əyləşmiş ser Uesli Kent də ona xoş gəlirdi. O, missis Oliverin kitablarını yüksək